# Azərbaycan adlı ailənin müxtəlif dinlərə aid üzvləri monolit birlik yaradıb

## Dövlətin gücü əhalinin çoxmillətli olmasında, müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların birgəyaşayışındadır

Qərblə Şərqi birləşdirən Azərbaycan fərqli sivilizasiyaların qovuşduğu məkan kimi tarix boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, müxtəlif millətlərin nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyartək tanınıb.



Azərbaycanda heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma baş verməyib. Cəmiyyətdə multikultural dəyərlər hakim olub, qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər hökm sürüb. Multikulturalizm Azərbaycan cəmiyyətini səciyyələndirən gözəl ənənəyə çevrilib.

Hər il noyabrın 16-sı Beynəlxalq Tolerantlıq Günü kimi qeyd olunur. Bu, 1995-ci ildə UNESKO-nun 50 illiyi münasibətilə təsis edilib. Məqsəd qurumun nizamnaməsində qeyd olunduğu kimi, dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırışdır.

Azərbaycan dünyada tolerantlıq örnəyi kimi tanınır. Ulu Öndər Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisinə çevirib. Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, burada bir çox millətlər, xalqlar, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Ölkəmizdə dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədədir. Azərbaycan Prezidenti İlham Əliyevin dindarlarla keçirdiyi görüşlər, Ramazan bayramlarında ənənəvi olaraq din xadimləri ilə iftar süfrələrində birgə iştirakı və bu mərasimlərə digər dini icmaların nümayəndələrinin də qatılması ölkədə tolerant düşüncənin tam bərqərar olduğunun göstəricisidir.

Dövlət başçısı dindarlarla görüşlərində islam dininə elmi yanaşmanı və onun fəlsəfəsinin öyrənilməsini mühüm şərt kimi səciyyələndirib. Dövlətin gücünü əhalinin çoxmillətli olmasında, müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların birgəyaşayışında görən Prezident İlham Əliyev bütün dünyaya göstərir ki, tolerantlıq Azərbaycan xalqının ruhundadır.

Azərbaycanda hər il beynəlxalq humanitar forumlar keçirilir ki, onlar bir tərəfdən, alim, siyasətçi və vətəndaş cəmiyyəti nümayəndələrinin ünsiyyətinə, digər tərəfdən isə, alimlərin elmi araşdırmalar, ideyalar mübadiləsi aparmasına imkan yaradır.

Ölkəmizdə dini və milli dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olması beynəlxalq aləmdə də etiraf olunur. Dövlətimizin başçısının müxtəlif tədbirlərdə səsləndirdiyi kimi, ayrı-ayrı dini konfessiyalara, irqi və milli mənsubiyyətə malik insanlar arasında münasibətlərin tənzimlənməsində, xalqlar arasında dostluğun və birgəyaşayışın qorunub saxlanmasında tolerantlıq və multikultural dəyərlər mühüm rol oynayır. Respublikamızda multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib. Ulu Öndər Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi siyasət Azərbaycanı müxtəlif milli-mədəni dəyərlərin qovuşma müstəvisinə çevirib. Bu gün də həmin siyasət uğurla davam etdirilir.

Ölkəmizdə müxtəlif konfessiyaların nümayəndələri tərəfindən nümayiş etdirilən qarşılıqlı ehtiram, konstruktiv əməkdaşlıq, həmçinin ümumbəşəri mənəvi dəyərlərin mənimsənilməsi yolunda görülən işlər, göstərilən xidmətlər olduqca yüksək qiymətləndirilir. Yəni Azərbaycanı tolerantlıq baxımından bir çox ölkələr üçün örnək hesab etməyə imkan verir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqincə davam etdirilməsi nəticəsində bu gün Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, bütün millətlər, xalqlar, müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayır və azad fəaliyyət göstərirlər. Azərbaycanda bütün azsaylı xalqlar yüksək qayğı ilə əhatə olunub.

Ulu Öndərin banisi olduğu azərbaycançılıq ideyası xalqımızın multikultural və tolerant dəyərlərinin ideoloji sistemini təşkil etməklə yanaşı, ölkəmizdə yaşayan bütün etnosların vahid maraqları və dövlət prinsipi ilə mənəvi-siyasi birliyini əlaqələndirir.

Azərbaycan Prezidenti İlham Əliyevin "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında" 11 yanvar 2016-cı il tarixli sərəncamı da göstərir ki, multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Xalqımızın sahib olduğu multikultural dəyərlərin dünyaya təqdim edilməsində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın böyük əməyi var.

Daha mühüm və incə bir məqam ondan ibarətdir ki, bütün dövrlərdə xalqımızın monolit birliyi daim diqqət çəkib. Ermənistanın təcavüzkarlığı nəticəsində itirdiyimiz ərazilərin bərpası uğrunda apardığımız haqq savaşında da bu birliyin şahidi olan dünya xalqları mat qalıb. Tolerantlıq, multikulturalizmin bu gün bizə verdiyi töhfə ön və arxa cəbhədə özünü göstərməkdədir.

Ali Baş Komandanımız da məhz bu birliyi dilə gətirir: "Biz birlikdə güclüyük!"

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.- 15 noyabr.- S.11.